# BARAT VÜSALIN GÖRKƏMLI ADAMLAR HAQQINDA FIKIRLƏRI

Keçmişdə **Nizami Cəfərov** kimi adamlar haqqında deyirdilər ki, çox bilikli (kəlləli) adamdır.

Aristotel beyin fəaliyyəti ilə məşğul olanları allahlara yaxın olanlar hesab edirdi. Onları ən uğurlu adam adlandırırdı.

Ucalığın və uğurunsa bir sirri də varmış:

Nizami Cəfərov kimi olmaq!

Yaşamaq! Yazmaq! Yaratmaq!

Xalqını, millətini, türk dünyasını - bəşəriyyəti sevmək! Onun ədəbiyyatını, tarixini, elmini, milli dəyərlərini bayraq kimi öz başı və başlar üstdə uca tutmaq!

***

Əsərləri dünyanın 18 dilinə tərcümə edilmişdi. Mən onu Azərbaycanın Markesi adlandırmışdım. Markesin də qonşuluğunda yaşamağa layiq sənətkardı.

Deyirlər ki, göylərdə hərənin bir ulduzu var. İnsan öldümü, o ulduz göy üzündən axar.

Bu yaxınlarda o ulduzlardan biri də axdı...

Gəncə göyündən!

Nizami məqbərəsinin "böyründən".

**Qərib Mehdinin** ulduzuydu.

***

**Nizaməddin Şəmsizadə** köhnə Turançıların yadigarıdır. Bizim Turan sevdalı "Qızıl Alma" yolçusu olmağımızda, Azərbaycançılıq ideologiyasının formalaşmasında onun da müstəsna xidmətləri var, bu günün və gələcək turançıların müəllimidir. O, bu gün cismən Azərbaycanda yaşasa da, ruhən Turanda yaşayır və istədiyi qədər yaşamaq haqqı var!

***

Olasan övliya, ya Şaman... şərəf!

Vətən, Millət üçün yaşaman - şərəf!

Məmməd İsmayıltək yaşamaq şərəf,

Məmməd İsmayıltək ölməmək olmur,

**Məmməd İsmayılı** sevməmək olmur!

***

"Vicdan susanda" romanı **Vidadi Babanlının** qələmindən təsadüfən çıxmamışdı. Mən də onu müəllifinə daha çox məşhurluq gətirən həmin romana görə tanımışam. Həmin romanın müəllifi yaxşı bilirdi ki, bütün fənalıqlar və faciələr insanın vicdanı susanda başlayır. Ona görə də danışan yazıçının özü deyildi. Onun da özündən qabaq danışan vicdanıydı.

***

**Xalq yazıçısı Elçinin xatirəsinə**

Bir gözəl görəndə ayaq saxladı,
Anrıda onunla şəkil çəkdirdi.

Yaxınlar darıxdı qoşa şəkilsiz,
Anrı da onunla şəkil çəkdirdi.

Sevinc bir tərəfə çəkilək, dedi,
Olarmı, bir şəkil çəkdirək? dedi.
"Mənim yazıçımsan!" hər ürək dedi,
Yanında onunla şəkil çəkdirdi.

Barat, yaxına bax, haqqa yaxına,
Heç kim istəməzdi belə yıxıla!
Elə heyran oldu yaratdığına,
Tanrı da onunla şəkil çəkdirdi!

***

Adətən, ağbirçəklərimiz biz uşaq olanda Allaha dua edərdilər ki, "Balamı bədnəzərdən, pis nəfəsdən qoru, Allahım!"

Molla Pənah Vaqifsə görün, nədən ötrü dua edərmiş:

Vaqif bir şeydadır, dolanır bağı,
Xəstədi, dərmanı dilbər dodağı.
O büllur buxağı, alma yanağı,
Allah, bədnəzərdən səlamət eylə!

Yəni ki, gözəli və gözəlliyi hifz eylə, deyirmiş!

Göründüyü kimi, bu dualar fərqli-fərqli şeylərdi. Öz gözəl balan üçün etdiyin duayla bütün gözəl və gözəlliklər üçün edilən duanın fərqi göz qabağındadır.

Bu fərqliliyinə və vaqifliyinə görə **M.P.Vaqif** böyük Azərbaycan şairi ola bilmişdi.

***

**Yusif Səmədoğlu** 63 ildə öz ömrünü yaşadı (öz ölümünü yaşayırdı bəlkə)...
İndi daha ölməyəcək!
Ölməkdən canı həmişəlik qurtardı!
Ona görə ki, böyük sənətkardır!
Ona görə ki, Səməd Vurğunun oğludur!
Ona görə ki, sözün oğludur!
Əsərində təsvir etdiyi hadisələr öz başına gəldi.

***

**Vaqif Səmədoğlu** Sözün, Qələmin yaraşığıydı. Həyata yaraşıq verirdi. Ölümə də yaraşıq verməyə getdi. Deyirdi ki, 3-cü sinfə qədər Qazaxda oxumuşam. Qəhrəmanlarının Qazax ləhcəsində çox sərbəst danışmaqları bu faktla da müəyyən qədər bağlı ola bilərdi.

***

**Həmid Abbası** tanıyanlar yaxşı bilirlər ki, onda doğma yurda, əsl istedad sahiblərinə sevgi-sayğı hissi çox yüksək idi. Sadəlik, yüksək təvazö nümunəsi idi bu adam. Hər yerdə hamının köməyinə çatmağa, doğmaları ilə görüşə tələsirdi – hətta qəbiristanda da.

***

**İsmayıl Şıxlının Qazaxdakı**
**heykəli önündə düşüncələr**

Önüm də möhkəmdir, arxam da bərkdir,
Kişi heykəlinin qabağındayam.
Millətə bax, belə kişi gərəkdir,
Kişi heykəlinin qabağındayam!

Əzizdir o namus, o ar, bilirəm,
Nə qədər dünya var, o var, bilirəm.
Düşmən gözlərini ovar, bilirəm,
Kişi heykəlinin qabağındayam!

***

Səhər yenicə açılır, artıq yaz bitir, qarşıda isti yay ayları var, Günəş dağların arxasından az sonra yer kürəsini bağrına basacaq kimi boylanır, mən isə öz həyatimdə, həm də günəşin qənşərində oturmuşam, qarşımda ustad şairim Ağacəfər Həsənlinin şeirləri var. Mən şeirlərə baxıram, şeirlər isə misra-misra mənə gülümsəyir:

Eşq - Kəbədi, Tur dağıdı,
öp daşını, türbə kimi.
Münbit Vətən torpağıdı -
çək gözünə, sürmə kimi.

Bu şeirləri oxuyanda içindən bir səs gəlir - **Ağacəfər Həsənlinin** səsi, yaxından tanıdığımız adamların hamısı belə deyil, elə şairlər var ki, yaxından tanıyırsan, amma kənarda şeirini oxuyanda içindən yad səslər gəlir, qarışıq səslər, elə bil bazar kənarındasan. Amma Ağacəfər Həsənlinin şeirlərinin içində onun öz səsi var.

***

**Hüseyn Arif** hər babanı anmazdı, ondan danışmazdı. O, babalardan danışardı ki, atının nalından qığılcım səpələnərdi; "Ceyranı piyada qovub tutardı", "Kürü ir nəfəsə üzüb keçərdi". Bu azman kişilər Kürdən 30 km aralıda olan Ceyrançölündəki bir yerdən bir ayağını "Sac dağı"na, digərini "Çoban dağı"na qoyub əyilərək Kürdən su içərdilər...

Bu yazını yaza-yaza hiss edirəm ki, mən də yaxşı nə öyrənmişəmsə, həmişə ruhən yanlarında olduğum, dizlərinin dibini kəsdirdiyim belə kişilərdən, atalardan, babalardan öyrənmişəm, görüb-götürmüşəm.

***

Susuz səhralara su daşıyırsan,
Sən dərin quyusan, **Məmməd İsmayıl!**
Zəm-zəm suyu kimi bu Yer üzünün
Ən sərin suyusan, Məmməd İsmayıl!

Şairsiz olarsa bu Yer kürəsi,
Nəyə dəyəsidi, nəyə dəyəsi?!
Pələngin pəncəsi, Şirin nərəsi,
Qartalın qıyısan, Məmməd İsmayıl!

***

Qənirə xanım Paşayevanın dünyasını dəyişdiyinə kim inanar ki? Mən də inanmıram! Bir vaxtlar Təbrizə babamız Şəhriyarın qəbrinə gül qoymaq üçün tələsdiyi kimi yenə də yəqin ki, tələsik səfərə çıxıb...

Bakıdan Təbrizə bir gül apardı,
Şəhriyar qəbrinin üstə qoymağa.
Yox, gül aparmadı, könül apardı,
Şəhriyar qəlbinin üstə qoymağa!

Gedirdi nur səpib yola, deyirlər,
Bu da bir xidmətdi Vətən yolunda!
Mənzilə çatdırıb, belə deyirlər,
Gül onu gül kimi tutub əlində!?

***

Davud Nəsibin yaradıcılığını izlədikcə, oxuduqca adam hiss edir ki, o, təkcə şair deyildir. Həm də Sözün, Ruhun, Torpağın, ulularımızın qəbri başında dayanmış bir keşikçidir.

***

**Şair dostum**
**Elxan Zal Qaraxanlıya**

Yaradan göndərir yer üzərinə,
Hamının sevdiyi yaradan oğlu!
Könüllər mülkünə sultan olmağa,
Könül hardan alır, haradan oğlu!

Özü sultan olan neynir sultanı,
Sözü sultan olan yenir sultanı,
Yoxa çıxmayıbmış könül sultanı,
Var hələ, var hələ, var, adam oğlu!

***

**Əhməd Qəşəmoğlu** nizama, ahəngə köklənmiş şairdir. Şeiri də, elmi də, bütünlükdə eşqi də bizi Ahəngyol kəhkəşanına səsləyir.

...Bizi heç kim eşitmək istəməsə belə, sən ki, eşidirsən, İlahi! Bu günəcən Əhməd Qəşəmoğlunu da tək-tənha qoyduq  Əlac özünə qalıb. Özün ki, görürsən "Qəlb işıqlarının can verən vədəsidir, tanrım! "Necə olursa olsun dünya işıqları dirildənlərə, Əhməd Qəşəmoğlu kimi "Bütün kainat qəlbimdə" deyənlərə qalmalıdır.

Əhməd Qəşəmoğlu kimi mən də həmişə yalnız eşqə inandım, nizama, ahəngə bel bağladım. İlahi, mən də Əhməd Qəşəmoğlu demişkən "Eşqinlə eşqə çatdım, eşqi keçdim o yana, eşq də bir göy üzüdü, yol aldım kəhkəşana!"

***

Olur! Şairin köynəyi sözdü! Şair onu "geyinəndə" köynək adama yaraşır, adam köynəyə!

Şair qardaşım **Sərvaz Hüseynoğlunun** da belə bir köynəyi var: Şair köynəyi! İlhamı, istedadı, qələmi alıb o köynəyi ona. Yalnız özü geyinəndə hamının köynəyi olur elə bil...

***

**...Nazim Hikmət** aşiqdi.

Füzuli dövrünün aşiqlərindəndi.

Yazırdı ki, elə bir aşiqəm, elə bir aşiqəm ki, ancaq Füzuli kimi bir şairin ürəyi belə bir eşqlə çırpına bilmişdir.

Sevdiyinə öz şıltaqlıqlarını deməkdən ehtiyat etmirdi:

"Bağışla məni, sevgilim! - deyirdi, bu qədər haqsız, bu qədər vəhşi və bu qədər dəli olduğumu xatırlaya bilmirəm. Sənə dair yazmaq istəyirəm. Yazdıqca sevgimi, iztirablarımı, dəliliklərimi söylədikcə fərəhlənirəm, sakitləşirəm".

Baxın, Nazim Hikmət bəlkə də heç kimin etiraf edə bilmədiyi məqamları da etiraf edir. Ona görə də belə güclüdür, yenilməzdir, ölməzdir!